KREDO
№ 43-44 (1221-1222) 19 iyul 2024-cü il

# Gənclər Kitabxanasında Məhəmməd Füzulinin 530 illiyi münasibətilə sərgi hazırlanıb




Bu il Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 ili tamam olur. Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkarın ədəbi irsinin təbliği məqsədilə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında virtual kitab sərgisi hazırlanıb.

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, sərgidə ədibin həyat və yaradıcılığına, görkəmli şəxslərin onun haqqında söylədikləri dəyərli fikirlərə, özünün müəllifi olduğu müdrik kəlamlara geniş yer verilib.

Virtual kitab sərgisində ədibin qəzəlləri, poemaları, Azərbaycan, ərəb və fars dillərində qələmə aldığı ədəbiyyat nümunələri haqqında geniş məlumat verilib, müəllifi olduğu "Leyli və Məcnun", "Bəngu – badə", "Rind və Zahid", "Hədiqətus-süadə", "Şikayətnamə", "Söhbətül-əsmâr" kimi əsərlərin və onun haqqında nəşr edilən "Klassiklər yenə də klassiklər", "Füzuli qəzəllərinə təxmislər", "Məhəmməd Füzulinin mətləul-etiqad əsərinin şərhi", "Eşq sultanı", "Şəbi-hicran" kimi 20-dən çox kitabın qısa annotasiyası təqdim olunub.

Sərgi kitabxananın rəsmi saytında https:ryl.azmultimediamehemmed-fuzuli-530 yerləşdirilib.

Kitabxanada, həmçinin "Məhəmməd Füzuli – 530" adlı ənənəvi sərgi də təşkil edilib. Sərgidə Məhəmməd Füzulinin həyat və yaradıcılığı barədə kitablar, kitabxana əməkdaşları tərəfindən hazırlanan "Dahi Azərbaycan şairi Məhəmməd Füzuli - 530" adlı biblioqrafik bülleten nümayiş olunur.

**AZƏRTAC**